**“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icra vəziyyətinə dair Dövlət Statistika Komitəsinin 2023-cü il üzrə hesabatı**

| Sıra N-si | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| 2.4. | Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması və bu sahədə ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər görülməsi | İl ərzində Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinə işə qəbul prosedurlarında ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi və şəffaflığın artırılması məqsədilə Mərkəzin internet səhifəsində 4 vakansiya barədə elan verilmiş (*https://etsim.az/az/news-view/85-vakansiya, https://etsim.az/az/news-view/89-vakansiya, https://etsim.az/az/news-view/94-vakansiya, https://etsim.az/az/news-view/78-vakansiya),* iddiaçılarla müvafiq müsahibələr keçirilmiş və qanunvericiliyə uyğun olaraq qalib namizədlərin işə qəbulu ilə bağlı məlumatlar mərkəzin internet səhifəsində yerləşdirilmişdir. |
| 2.5. | Dövlət orqanları (qurumları) tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin təqdim edilməsi | Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə Vahid Giriş (Login) Sisteminin tətbiqi imkanları araşdırılmışdır. Hazırda 31 qurum və 64 informasiya sistemi Vahid Giriş Sisteminə inteqrasiya edilmişdir. Dövlət Statistika Komitəsi tərəfindən göstərilən “Sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair elektron arayışın verilməsi” elektron xidməti də Vahid Giriş (ASAN Login) Sisteminə inteqrasiya edilmişdir.<br>“Statistik nəşrlərin (kitabların) onlayn satışı” elektron xidmətindən, eləcə də “Statistik məlumatların (göstəricilərin) verilməsi” xidmətindən Azərbaycan Respublikasının vətəndaşları ilə yanaşı, digər ölkə vətəndaşları və beynəlxalq təşkilatlar da istifadə etdiyi üçün istifadənin məhdudlaşdırılmaması məqsədilə bu xidmətlərə Vahid Giriş (Login) Sisteminin tətbiqi məqsədəuyğun hesab edilməmişdir. Eyni zamanda, “Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların təqdim edilməsi” xidməti informativ xarakter daşıdığına, “Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi” elektron xidməti isə “ASANPAY” ödəniş sisteminə inteqrasiya edildiyinə görə bu xidmətlərdə də “Vahid Giriş (Login) Sisteminin tətbiqinə zərurət olmamışdır.<br>Bununla belə, Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidmətinin Vahid Giriş (Login) Sisteminə inteqrasiyası məqsədəuyğun hesab edilmiş və hazırda rəsmi statistika hesabatlarının və müayinə formalarının onlayn təqdimatının hüquqi şəxslər tərəfindən statistik kod və şəxsi şifrə, fərdi sahibkarlar tərəfindən isə VÖEN və şəxsi şifrə daxil edilməklə həyata keçirildiyini nəzərə alaraq, rəsmi statistika hesabatlarının təqdim edilməsində hüquqi şəxslər və fərdi sahibkarlar üzrə Vahid Giriş |

| Sıra N-si | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| | | (Login) Sistemini tətbiq etmək (hüquqi şəxslərin yerli vahidlərinin isə “ASAN Login” vasitəsilə giriş imkanına malik olmadıqları nəzərə alınaraq onlar üçün hazırki giriş sisteminin saxlanılması) üçün zəruri tədbirlər həyata keçirilir. |
| 2.8. | Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı fəaliyyətin sürətləndirilməsi | 2023-cü ildə Komitənin elektron sənəd dövriyyəsi sistemində (ESDS) məlumat bazalarının təhlili aparılmış, sənəd göndərən və qəbul edən təşkilatların VÖEN-lərinin statistik vahidlərin Dövlət reyestri (fiziki və hüquqi şəxslər) ilə inteqrasiya olunması funksiyası yaradılmış, sistemin arayış hissəsində “Təşkilat” siyahısının yenilənməsi məqsədilə yeni funksionallıq həyata keçirilmişdir. Bununla yanaşı, Komitənin aparatında və yerli statistika orqanlarında çalışan bütün əməkdaşlar üçün elektron sənəd dövriyyəsi sistemində şəxsi kabinetlər yaradılaraq istifadəyə verilmiş, sistemin təhlükəsizliyinin təmin edilməsi məqsədilə məlumat bazasının test nüsxəsinin aktuallaşdırılması və qəza vəziyyətlərində ehtiyat surətlərindən ESDS-in əsas məlumat bazasının bərpası funksiyası təmin edilmiş, eləcə də sistemin fasiləsiz işi və sürətlə fəaliyyət göstərməsi ilə bağlı proqram təminatında olan çatışmazlıqlar aradan qaldırılmışdır.<br>Statistik məlumatların emalı və yoxlanması prosesinin keyfiyyətinin təmin edilməsi üçün Keyfiyyətə nəzarət cədvəllərinin proqram təminatında təkmilləşdirmə işləri aparılmışdır.<br>Ümumilikdə, 23 rəsmi statistika hesabatı forması üzrə respondentlər tərəfindən təqdim edilmiş ilkin statistik məlumatlardakı uyğunsuzluqların nəzarət cədvəlləri vasitəsilə aşkar edilərək emal prosesində aradan qaldırılması üçün zəruri işlər görülmüşdür. |
| 4.1. | Dövlət xidmətlərinin proaktiv, elektron formada göstərilməsi sahəsində fəaliyyətin genişləndiril-məsinin təşkil edilməsi üçün tədbirlər görülməsi | Dövlət xidmətlərinin proaktiv, elektron formada göstərilməsi məqsədilə 4-əmək №-li aylıq rəsmi statistika hesabatı üçün tətbiq edilən proaktiv mesaj funksiyası 2023-cü ilin iyun ayından 12-istehsal (sənaye) №-li aylıq hesabatı üçün də tətbiq edilmişdir. Belə ki, 12-istehsal (sənaye) №-li aylıq statistika hesabatını təqdim edən hüquqi şəxslərin elektron poçt ünvanlarına həmin hesabat müddətinin bitməsinə 1 (bir) iş günü qalmış avtomatik rejimdə müvafiq məzmunda elektron bildiriş göndərilmişdir.<br>Eyni zamanda, Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilən “Sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair elektron arayışın verilməsi” elektron xidmətinin təkmilləşdirilməsi ilə bağlı arayışın sənəd nömrəsinin yenilənməsi, məlumat bazasında sahibkarın hesabatlılığı ilə bağlı vəziyyətin yoxlanılması işləri yerinə yetirilmiş, habelə bu elektron xidmət üzrə təqdim edilən sənədin (arayışın) orijinallığını təsdiq edən QR kod tətbiq edilmişdir.<br>Bununla yanaşı, elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə “Statistik məlumatların (göstəricilərin) verilməsi” və “Statistik nəşrlərin (kitabların) onlayn satışı” elektron xidmətləri, həmçinin “Elektron müraciət” bölməsi digər elektron xidmətlər kimi “responsiv veb dizayn” texnikası ilə hazırlanmış və “ağıllı” telefon, planşet kimi böyük və ya kiçik ekranlı cihazlarda |

| Sıra N-si | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| | | bu xidmətlərdən istifadə zamanı səhifənin ölçülərinin cihazın (kompüter, planşet, telefon) ekran ölçülərinə uyğun istifadəçiyə təqdim olunması təmin edilmişdir. |
| 4.2. | Dövlət xidmətlərinin elektronlaşdırılması və dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi üzrə işlərin sürətləndirilməsi, kağız əsaslı xidmətdən məlumat əsaslı xidmətə keçirilməsinin təşkil olunması ilə bağlı fəaliyyətin təmin edilməsi | Dövlət İmtahan Mərkəzinin məlumat bazasının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına “Elektron Hökumət İnformasiya Sistemi” vasitəsilə inteqrasiyası tam başa çatmış və bunun nəticəsində dövlət qulluqçuları barədə dövlət orqanları tərəfindən təqdim olunan 365 göstəricidən 197-nin (54,0%) birbaşa inzibati mənbədən əldə olunması təmin olunmuşdur. Beləliklə, Dövlət İmtahan Mərkəzindən dövlət qulluqçuları barədə əldə olunan məlumatlar “Dövlət qulluqçularının sayı və tərkibi haqqında” 3-əmək (illik) №-li rəsmi statistika hesabatının I (“Dövlət qulluqçularının cins və yaş qruplarına görə bölgüsü”), II (“Dövlət qulluqçularının qulluq stajına görə bölgüsü”) və IV (“Xidməti fəaliyyəti qiymətləndirilmiş dövlət qulluqçularının sayı”) bölmələrinə onlayn rejimdə daxil edilmişdir. Respondentlər tərəfindən hesabatın göstəriciləri onlayn rejimdə proqrama daxil edilərkən hesabatın I, II və IV bölmələrində olan göstəricilər yoxlanılır, ehtiyac olduğu halda düzəlişlər edilir və yalnız III bölmənin yazılması təmin olunur. Bununla da, müvafiq rəsmi statistika hesabatını təqdim edən respondentlərə düşən statistik yük əhəmiyyətli dərəcədə azaldılmışdır.<br>Elm və Təhsil, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Dövlət Miqrasiya Xidmətinin məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına “Elektron Hökumət İnformasiya Sistemi” vasitəsilə inteqrasiyasına dair imzalanmış razılaşmalar əsasında zəruri texniki işlərin yerinə yetirilməsi davam etdirilmişdir. |
| 4.6. | Dövlət xidmətlərinin mobil texnologiyalar vasitəsilə göstərilməsi imkanlarının genişləndirilməsi | Dövlət Statistika Komitəsi tərəfindən dövlət xidmətlərinin mobil texnologiyalar vasitəsilə göstərilməsi ilə əlaqədar tətbiq olunan proqramların funksionallığının genişləndirilməsi məqsədilə “Statistik məlumatların (göstəricilərin) verilməsi” və “Statistik nəşrlərin (kitabların) onlayn satışı” elektron xidmətlərinin, eləcə də “Elekron müraciət” bölməsinin mobil texnologiyalar vasitəsilə göstərilməsi imkanlarından daha geniş istifadə edlməsi üçün müvafiq səhifələr “İOS” və “Android” platformasında müxtəlif ekran görünüşlərinə uyğun hazırlanaraq istifadəçilərə təqdim edilmiş və bu sahədə proqramların funksionallığı genişləndirilmişdir. |
| 4.9. | Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi | Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin “Elektron xidmətlər” bölməsində “İstifadəçi məmnunluğu sorğusu”nun anketi yerləşdirilmiş, cari ilin yanvar-sentyabr ayları üzrə sorğu keçirilmiş və nəticələri təhlil edilmişdir. Sorğuda iştirak etmiş istifadəçilərin 80,4%-i “Təqdim edilən elektron xidmətin keyfiyyətindən razısınızmı” sualına “Bəli”, 12,5%-i “Xeyr”, 7,1%-i “Qismən”, “Elektron xidmətdən istifadə Sizə hansı üstünlükləri verir” sualına 54,0%-i “Vaxt itkisini azaldır”, 23,0%-i “Rahatlığı təmin edir”, 16,0%-i “Neqativ halların baş verməməsi üçün bir vasitədir”, 7,0%-i “Digər üstünlükləri vardır”, “Elektron xidmətin təqdim |

| Sıra N-si | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| | | edilməsi üçün hazırlanmış onlayn proqram təminatının strukturu Sizi qane edirmi" sualına isə 83,0%-i "Bəli", 11,0%-i "Xeyr", 6,0%-i "Qismən" cavabını qeyd etmişdir. |
| 5.1. | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi | 05.12.2023-cü il tarixində korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarından "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev ilə Dövlət Statistika Komitəsi aparatının 20 nəfər əməkdaşı arasında onlayn görüş keçirilmişdir. Görüşün gündəliyinə 1 məsələ daxil edilmişdir: "Vətəndaş cəmiyyəti institutlarının korrupsiyaya qarşı mübarizə sahəsində rolu". Məsələ ilə bağlı çıxış edən Ə.Nuriyev qeyri-hökumət təşkilatları tərəfindən korrupsiyaya qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlər, dövlət orqanları tərəfindən qərar qəbuletmə prosesində vətəndaş cəmiyyəti institutlarının rolu barədə məlumat vermişdir. Görüş zamanı eyni zamanda Komitə tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi sahəsində 2023-cü il ərzində görülmüş işlərlə bağlı da məlumatlar təqdim edilmiş, korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən 2024-cü il üzrə görüləcək tədbirlər müzakirə edilmişdir. |
| 5.2. | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması | 2023-cü ilin on bir ayında Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən şikayət daxil olmamışdır. Bununla yanaşı, Apellyasiya Şurasının iclaslarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrinə dair 10 şikayət xarakterli məsələ müzakirə edilmiş və keçirilmiş iclaslar barədə məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmişdir.<br>Komitənin Elmi-metodoloji şurasında müzakirəyə çıxarılan məsələlərin əhatəsinin genişləndirilməsi və daha konseptual xarakterli, beynəlxalq yenilikləri və yerli qanunvericilikdə edilən dəyişiklikləri özündə əks etdirən, innovativ xarakterli məsələləri müzakirəyə çıxarmaq üçün aidiyyəti sahə şöbələri ilə mütəmadi müzakirələr aparılmış və iş planları bu tələblərə uyğun tərtib edilmişdir. 2023-cü ilin on bir ayında Komitənin Elmi-metodoloji şurasının 9 iclasında 31 məsələ müzakirə edilmiş, keçirilmiş iclaslar barədə məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmiş, geniş oxucu auditoriyasına çatdırılmışdır.<br>Cari ildə Dövlət Statistika Komitəsində "Dayanıqlı inkişaf statistikası və regionlar statistikası: nailiyyətlər, problemlər və perspektivlər", "Nəqliyyat, informasiya, rabitə və turizm statistikası sahələrində mövcud vəziyyət və qarşıda duran vəzifələr", "İstehlak qiymətləri indeksinin hesablanması", "Sənaye və tikinti statistikası üzrə görülmüş işlər və qarşıda duran perspektivlər", "Ticarət statistikası sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzularında statistik məlumat istifadəçiləri ilə görüşlər, seminarlar keçirilmiş və bu tədbirlərə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndələri dəvət olunmuşdur. |

| Sıra N-si | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| 6.2. | Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi | 03.10.2023-cü il tarixində Dövlət Statistika Komitəsi aparatının və yerli statistika orqanlarının dövlət qulluğuna yeni qəbul olunmuş əməkdaşları üçün antikorrupsiya davranışının formalaşdırılması məsələləri üzrə təlim keçirilmişdir. Təlimdə korrupsiyanın hüquqi və iqtisadi anlayışları, növləri, yaratdığı fəsadlar, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş qanunvericilik aktları, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri və hüquqpozmalara görə məsuliyyət, korrupsiyanın qarşısının alınması ilə bağlı tədbirlər, hüquqpozmaların nəticələrinin aradan qaldırılması və digər məsələlər barədə iştirakçılara məlumat verilmişdir. |
| 6.7. | Regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılması ilə bağlı maarifləndirmə tədbirlərinin keçirilməsi | 2023-cü ildən Dövlət Statistika Komitəsi tərəfindən “Məhsul və xidmətləri onlayn əldə edən şəxslərin sayının ödəniş və çatdırılma növlərinə görə bölgüsü” göstəricisi üzrə məlumat istehsalına başlanılmış, onlar “Azərbaycanda informasiya cəmiyyəti” məcmuəsinin 2023-cü il nəşrinə daxil edilmiş və ASİS-Statistik informasiya xidmətinə əlavə edilmişdir. |
| 6.9. | Kütləvi informasiya vasitələrindən, o cümlədən dövlət orqanlarının (qurumlarının) və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi | Korrupsiyaya qarşı mübarizə ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması məqsədilə “Korrupsiyaya qarşı mübarizəyə dair yaddaş kitabçası” hazırlanmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir. Kitabçada korrupsiyanın anlayışı və formaları, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, korrupsiya ilə əlaqədar müraciətlərə baxılmasının xüsusiyyətləri, korrupsiya hüquqpozmalarına görə məsuliyyət və digər məsələlər barədə məlumatlar öz əksini tapmışdır. |